## Prezidentin izi ilə

# Qalib xalqın övladı kimi Xocalıya qayıdırıq

**(əvvəli 25 və 26 fevral tarixli saylarımızda)**

Dirçəliş təkcə quruculuq işlərində deyil, həm də insanların mənəviyyatında, arzularında, gələcək ümidlərində baş verir. Yaralı daşların, qırılan talelərin, məhv edilən arzuların şahidi olan Xocalıda indi şərəf, qürur, ləyaqətli qayıdış təntənəsi yaşanır. İllər ötsə, əsrlər keçsə də, Azərbaycan xalqı ermənilərin törətdikləri Xocalı soyqırımını heç vaxt unutmayacaq, mənfur düşməni heç vaxt bağışlamayacaq. Xüsusilə, ermənilərin havadarları, bəzi Qərb dövlətləri, ermənipərəst dairələr, onların şər və böhtan dəyirmanını işlədənlər bilməlidirlər ki, Xocalı qatilləri son nəfərinədək cəzalandırılacaq.

Azərbaycan əsgəri əlləri körpə uşaqların qanına bulaşmış Robert Köçəryanı və Serj Sarkisyanı - bu iki quldurun "qurduğu güclü Ermənistanı" döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğratdı, qorxaqlar qaçıb gizlənməyə məcbur oldular, şəhidlərimizin qisası döyüş meydanında alındı. Ötən ilin 19-20 sentyabr tarixində qəhrəman silahlı qüvvələrimizin bölmələrinin keçirdiyi antiterror tədbirləri nəticəsində Xocalı şəhəri erməni separatçılardan təmizlənərək işğaldan azad edildi. Bu tarixi gün xocalılıların həyatına günəş kimi doğdu. İndi xocalılıların dillərində xoş müjdələr dolaşır, bir-birinə gözaydınlığı verirlər, sevinc göz yaşları ilə şükranlıqlarını bildirirlər. Dövlətimizin başçısının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı layihələr həyata keçirilir, əhalinin rahat yaşayışının təmin edilməsi üçün zəruri infrastruktur qurulur, keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətlə qayıdışının təmin edilməsi üçün bütün tədbirlər görülür.



### Quruculuğun, Qayıdışın işıqları

Hazırda Xocalıda da geniş bərpa-quruculuq davam etdirilir. Sözün əsl mənasında Xocalı 8 aya ərsəyə gələn möcüzədir, yeni, müasir, modern bir şəhər öz sakinlərinə qucaq açıb. Ağdam-Xankəndi-Şuşa yolunun üzərində yerləşən bu şəhər davamlı inkişaf edən canlı regional mərkəz, strateji yaşayış məntəqəsi rolunu oynayacaq. Beynəlxalq hava limanının mövcudluğu, şəhər ətrafından keçəcək respublika əhəmiyyətli avtomobil və dəmir yolları Xocalını həm işgüzar, həm də turizm məqsədləri üçün təyinat nöqtəsinə çevirəcək. Sənaye, təhsil və mədəniyyət mərkəzlərinə yaxınlığı, zəngin tarixi irsə malik olması isə şəhərin müxtəlif istiqamətlərdə paralel inkişafına töhfə verəcək. Baş Planın əsasında "ağıllı şəhər" həlləri, dayanıqlı iqtisadiyyat və ətraf mühit, "yaşıl enerji"dən istifadə imkanları, davamlı inkişaf edəcək şəhər mühiti kimi konseptual yanaşmalar dayanır. Bura enerjiyə qənaətli "yaşıl bina"lar, küçə işıqlandırılması, sıfır karbon emissiyalı istehsalat, elektrik enerjili doldurma məntəqələri, inteqrə olunmuş mühəndis infrastrukturları, "ağıllı suvarma sistemləri" kimi yeniliklər daxildir.

Xocalı şəhəri mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 610 hektardan 1290 hektara, əhali sayının isə 9100 nəfərdən 12 minə çatacağı proqnozlaşdırılır. Coğrafi mövqe və təbii zənginlik burada aktiv sosial həyat, təbiətlə təmasda keyfiyyətli yaşayış imkanlarını təmin edəcək. Xocalı rayonunun əlverişli təbii-coğrafi şəraiti sayəsində burada əkinçilik və heyvandarlıq üçün geniş imkanlar mövcuddur. Kənd təsərrüfatının şəhər iqtisadiyyatında da xüsusi paya malik olacağı nəzərə alınaraq, Baş Plana əsasən 91 hektar ərazi aqroparkın fəaliyyəti üçün ayrılacaq. Həmçinin şəhərin cənub hissəsində 88 hektar sahənin sənaye ərazisi üçün istifadə olunması təklif edilir. Əlbəttə, bütün bunlar əhalinin dayanıqlı məşğulluğuna zəmin yaradacaq.

Ötən il mayın 28-də - Müstəqillik Günündə Xocalı şəhərinə ilk qayıdan sakinlərə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən evlərin açarlarının təqdim olunması, sakinlərlə səmimi görüş tarixi hadisədir. Xocalı yarası hər bir azərbaycanlının qəlbini göynədir, qaysaq bağlamırdı. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalıda üçrəngli Bayrağımızı ucaltdıqdan və mayın 28-də şəhərə qayıdışın başlanmasından sonra soyqırımı qurbanlarının, bütün şəhidlərimizin ruhları rahatdır. İlk dəfə olaraq soyqırımının 32-ci ildönümü məhz Xocalı şəhərində anıldı. Ötən il fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoydu, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Qeyd edək ki, fevralın 25-də Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Bu mühüm dövlət sənədində bildirilir ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə başlanan Birinci Qarabağ müharibəsi (1991-1994) zamanı xalqımıza qarşı ən ağır beynəlxalq cinayətlər törədilmişdir. 1992-ci il fevralın 26-da Xocalı şəhəri işğal edilərkən dinc əhaliyə qarşı etnik zəmində törədilən soyqırımı cinayəti münaqişənin ən qanlı səhifəsidir. Ermənistanın bütün cəhdlərinə, xüsusilə də o dövrdə yaratdığı informasiya blokadasına baxmayaraq, cinayətin miqyası və ağırlığı dünyanın aparıcı media qurumlarının və beynəlxalq təşkilatlarının hesabatlarında işıqlandırılmışdı. Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılmışdır. Hazırda xarici ölkələrdə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış 10 abidə mövcuddur. 2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında birgünlük lokal xarakterli antiterror əməliyyatında Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində tarixi torpaqlarımız, o cümlədən Xocalı rayonu işğaldan azad olundu və 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan Bayrağı ucaldıldı.

Xocalı şəhərində bərpa-quruculuq işlərinə başlandıqdan cəmi bir neçə ay sonra keçmiş məcburi köçkünlərin qayıdışı reallaşdı. Bütün xalqımız bu hadisəyə sevinir. Çünki soyqırımına məruz qalmış Xocalıya 32 ildən sonra həyat qayıdır. Xocalıda soyqırımı ilə əlaqədar Memorial Kompleks də yaradılır. Xocalı sakinləri ilə görüşdə bu barədə danışan Prezident İlham Əliyev bildirdi ki, Memorial Kompleksin yaradılması ilə bağlı məsələlər uzun illər müzakirə edilib, hətta Bakıda "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı: "Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu Memorial Kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir".

Xocalı böyüyür, inkişaf edir, müasir infrastruktur qurulur, insanlar doğma evlərinə qayıdırlar. Qarşıda onları xoşbəxt günlər gözləyir. Qürurla, sevinc hissi ilə Xocalını gəzirik, bir-birindən yaraşıqlı evlər, geniş və səliqəli küçələr, parklar göz oxşayır. Təbiətin və insan əllərinin yaratdığı gözəllikdən doymaq olmur. Yüksək əhvali-ruhiyyə ilə qədim yurd yerimizə bir daha qayıtmaq ümidi ilə yola çıxırıq. Qaş qaralanda Xocalıdan ayrıldıq, buradan bizi quruculuğun, Qayıdışın simvolu olan və evlərdə sayrışan işıqlar yola saldı...










### Ballıcaya bal kimi həyat qayıdır

Son 22 ildə zamanın fövqündə dayanan Xalq-Lider birliyi sarsılmaz xarakter alıb. Ölkəmizdə yeni dövr başlayıb. İşğaldan azad edilmiş torpaqlarımızda qələbə və qürur əhvali-ruhiyyəsi hökm sürür. Təbii ki, bu da bəzi ermənipərəst əcnəbi dövlətləri, min hoqqadan çıxan beynəlxalq təşkilatları, əlləri erməni lobbisinin ətəklərindən üzülməyən qərəzli senatorları və digər araqarışdıranları narahat edir. Onlar nə qədər kağız üzərində qalan bəyanatlar qəbul etsələr də, heç nəyə nail ola bilmir, əksinə xalqımızın sərt təpkisi ilə qarşılaşırlar. Bu barədə dövlətimizin başçısı qətiyyətlə bildirib ki, beynəlxalq aləmin əsas oyunçuları bizi ittiham etməyə, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Lakin ədaləti eyni zamanda beynəlxalq müstəvidə diplomatik savaş apararaq əldə etmişik. Ona görə Zəfərimizin əhəmiyyəti daha önəmlidir. Xocalıda bayrağı qaldırandan sonra biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası və Zəfərimizin son nöqtəsi idi.

Müzəffər Azərbaycan ordusu Ermənistanın 30 ilə yaxın işğalda saxladığı torpaqlarımızı savaş meydanında döyüşərək azad edib, hayların törətdikləri vandallığa son qoyulub. Yaraları göynəyən yurd yerləri yenidən cana gəlir, meşələr bərpa edilir, ağaclar əkilir. Ana təbiət otuz il vəhşi qəbilənin təcavüzünə məruz qalsa da, yaralarını sararaq yenidən dirçəlir. Zirvəsi buludlardan su içən dağların qaş-qabağı açılıb. Bahar fəsli, yaz ayları gələndə Qarabağda kəklikotu, qırxbuğum, qaymaqçiçəyi, baldırğan, qantəpər ətri aləmi bürüyür. Dərələr, düzlər, qoyun-quzu mələşməsinə, tütək səsinə, ocaq tüstüsünə, şirin söz-söhbətə həsrət qalan, darıxan dağlar, yaylaqlar indi çal-çağıra bürünüb. Yurd dirçəlir, keçmiş məcburi köçkünlərin qayıdışı bu yerlərin ahəngini dəyişir, bir-birindən 30 il ayrı düşən qonşuların sevinc göz yaşları həsrətin, qəmin, kədərin üzərindən xətt çəkir. Bu duyğuları Ballıcada yaşadıq, insanların çöhrəsindəki təbəssüm qədim yurd yerlərinə bir qaynarlıq gətirib. Xocalı rayonunun Ballıca kəndinə axşamüstü çatdıq, lopa-lopa yağan qar hər tərəfi bəyaza bürümüşdü, kəndi əhatəyə alan dağların sinəsi ağ ümmana bənzəyirdi, təxminən 30 ildən sonra Ballıcada bizi evlərdən ətrafa süzülən işıqlar qarşıladı. Kəndin çox nadir mənzərəsi var, burada dağlar dərələrlə qolboyun olub, sıx meşələr Ballıcanı qoynuna alıb, sanki ona layla çalır. Qarabağ silsiləsinin ətəyində, Qarqar çayının qolu olan Ballıca çayının sol sahilində, Xocalı rayon mərkəzindən 10 km cənub-qərbdə yerləşən kəndin gözlərimiz qarşısında çox möhtəşəm panoramı açılır. Sanırsan ki, Ballıcada təbiətin sehrli fırçası ilə böyük bir tablo çəkilib, kənd uca dağlara söykənib. Elə kənd də adını yanından axan çaydan götürüb, çay isə ballıca, yaxud öfkəotu bitkisi ilə adaşdır. Ballıca vaxtilə adla deyilən balı ilə tanınıb. Çox güman ki, kəndin adı həm də arıların ballıca bitkisindən çəkdiyi xüsusi şirə ilə bağlı olub. Bu anlamda Ballıca adını ballı məkan kimi də qəbul etmək olar.

Ballıca kəndi 1992-ci ildən Ermənistan silahlı qüvvələrinin işğalı altında olub. Bu müddət ərzində Ballıcada Ermənistan ordusunun silah anbarı yaradılıb. İkinci Qarabağ müharibəsində oktyabrın 5-də həmin silah anbarı Azərbaycan Ordusu tərəfindən məhv edilib. İşğaldan əvvəl əhali əsasən taxılçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğul olurdu. Kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi, uşaq bağçası vardı. Tarixi mənbələrə görə, Ballıca kəndinin ərazisi XIX əsrə qədər Yelizavetpol qəzasındakı Əhmədbəyli kəndinin əhalisinin yaylaq yeri olub. Sonralar başqa ərazilərdən, o cümlədən İrandan köçürülən ermənilər burada məskunlaşdırılmışdı. Ballıca kəndi görkəmli xanəndə Xan Şuşinskinin babasının mülkü olub. Sonralar kənd onun nökəri erməni Cümşüdə qalıb. Vaxtilə ermənilərin "Ayqestan" adlandırdıqları Ballıca kəndi şanlı ordu bölmələrimizin 2023-cü il sentyabrın 19-20-də Qarabağda çox çevik, peşəkar və qətiyyətlə keçirdiyi lokal antiterror tədbirlərindən sonra düşmən işğalından azad edilib. Ballıca kəndi 10-cu yaşayış məntəqəsidir ki, işğaldan sonra bura həyat qayıdıb, burada 137 ev bərpa edilib və əlavə təqribən 60-a yaxın ev təmir olunacaq. Kəndə 460 nəfərdən artıq keçmiş məcburi köçkün köçürülüb.

Bərpa edilmiş bir neçə evdə komfortlu yaşayış üçün hər cür şərait yaradılıb. Küçələr sahmana salınıb, kəndin mərkəzində bayraq meydanı yaradılıb. Dairənin ortasında quraşdırılmış "arı şanı" da kəndin ballı məkan olmasına işarədir. Bu həm də tezliklə kənddə məskunlaşacaq sakinlərin Ballıcada arıçılığı inkişaf etdirməyə bir çağırışdır. Kənd su, qaz, elektrik enerjisi ilə təchiz edilib, internet xətti çəkilib. Bütün evlərə çəkilmiş su kranlarından bulaq suyu süzülür. Kənddə üç yerdə bulaq qaynayır, "Təkqəbir", "Sarıtala" və "Alçalı" bulaqlarının suyu can dərmanıdır. Tibb və polis məntəqəsinin binaları, 200 şagird yerlik tam orta məktəb və 35 çarpayılıq uşaq bağçasının tikintisi başa çatıb. Prezident İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb. Dövlət başçısının tapşırığına əsasən kənd sakinlərinə əkinçilik üçün torpaq sahələri, heyvandalıqla məşğul olanların mal-qarasına da örüş ayrılacaq. İki aydır ki, keçmiş məcburi köçkünlər Ballıcada yaşayırlar, kənddə həyat qaynayır, insanlar bir-birinə gözaydınlığı verirlər, dövlətimizə, Qalib Ali Baş Komandana, ordumuza minnətdarlıq bildirir, şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərə cansağlığı arzu edirlər. Prezident İlham Əliyev Ballıca kənd sakinləri ilə görüşündə deyib: "Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik. Yəni hər şeyi mərhələli yollarla edirik, öz gücümüzlə, bizə heç kim kömək etmir. Ancaq öz imkanlarımız daxilində, öz gücümüzə arxalanaraq, Azərbaycan xalqının imkanlarına arxalanaraq, dövlət hesabına bütün bərpa-quruculuq işləri aparılır, özü də qısa müddət ərzində".

Kəndi gəzirik, qar yağsa da, küçələrdə kənd sakinlərinə rast gəlirik. Salamlaşan kimi öz evlərinə qonaq dəvət edirlər, təzə binə olsaq da, Allaha şükür, hər şeyimiz var, xəcalətli qalmarıq deyirlər. **Kənd sakini Ələsgər Ağayevin** evinə daxil oluruq, iki-



mərtəbəli binadır, eyvanından baxanda çox gözəl təbiət mənzərəsi açılır, sanki əlini uzatsan başı qarlı dağlara çatar. Ələsgər evdə təmir getdiyinə görə üzrxahlıq edərək deyir: "Bərpa işləri aparan şirkətə müraciət etdim ki, evimi özüm təmir etmək istəyirəm, bunu yaxşı bacarıram. Sağ olsunlar, sözümü yerə salmadılar, təmir üçün lazım olan bütün materialı veriblər". İşıqlı bir otağa daxil oluruq, evin xanımı bizi çaya qonaq edir. "Ürəkli için, tərtəmiz bulaq suyundan dəmləmişəm" deyə evin xanımı bildirir. Doğrudan da çayın ətri bir andaca yorğunluğumuzu çıxarır. Ələsgər onlara yaradılan şəraitdən razılıq edərək deyir ki, sevincimiz sərhəd tanımır, bu xoşbəxt günləri bizə Prezidentimiz yaşadır, ordumuz bəxş edib, şəhidlərimizə minnətdarıq. "Allah qorusun Prezidentimizi. Məcburi köçkün taleyimizin ilk illəri çox ağır keçdi, ilk əvvəl Ucar rayonunda məskunlaşdıq, dağ şəraitində yaşayan insanlar Aranın istisinə dözmədilər, köçüb Gəncə tərəfə getdik. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığı ilə orada köçkünlər üçün böyük bir qəsəbə salındı. Bizim ailəyə də ev verdilər. Güzəranımız yaxşılaşdı, rahat nəfəs ala bildik. Birinci Qarabağ müharibəsi zamanı 17 yaşım var idi. Müharibəyə getməyə can atırdım, lakin hərbi komissarlıq mənə yaşım az olduğu üçün icazə vermirdi. Ailəmdən gizlin Ağdama gedərək döyüşlərə qatıldım. Ağır döyüşlərin birində yaralandım, məni hərbi hospitala apardılar. Bir qədər müalicə alandan sonra yenidən cəbhəyə qayıtdım, yenə də ağır yaralandım. Uzun müddət müalicə alsam da, indi bədənimdə, başımda mərmi qəlpələri qalıb, ancaq məni incitmir, birtəhər yoldaşlıq edirik. Torpaqlarımız İkinci Qarabağ müharibəsində azad ediləndə sevincimdən ağladım, inana bilmədiyimiz bir xoşbəxtlik baş vermişdi. Oğlum Təbriz Ağayev zabitdir və "N" saylı hərbi hissədə xidmət edir".

Ballıca kəndinə ilk köç ötən il dekabrın 13-də olub və mərhələli şəkildə davam edir. Bir neçə gün əvvəl isə növbəti mərhələdə 95 nəfər (22 ailə) daimi yaşamaq üçün Ballıca kəndindəki fərdi yaşayış evlərinə köçürülüb. Bununla da bu günə qədər kənddə 112 ailə (562 nəfər) daimi məskunlaşıb. **Kəndə ilk köçürülən Şahin Əzimov** doğma torpağına qovuşduğuna,



yeni evində hər cür şəraitin yaradıldığına görə çox sevinir. Uzun illər məcburi köçkün taleyi yaşamış Şahinlə həmsöhbət olduq: "Ata-baba evimizi ermənilər dağıdıblar, ikimərtəbəli, yaraşıqlı evimiz var idi. Bünövrəsinə qədər söküblər. Dövlətimiz sağ olsun, bizim ailəyə köhnə evimizin lap yaxınlığında yeni ev verib. Bu kənddə uşaqlığım keçib, bir vaxtlar burada qayğısız yaşamışıq, demək olar ki, gəldiyim gündən kəndimizi gəzirəm, köhnə xatirələr məni həmin illərə aparır. Kəndimizdə bütün şərait yaradılıb, küçələr təmir edilib, heç nədən korluq çəkmirik. Ümid edirəm ki, kəndimiz Azərbaycanın ən gözəl turizm məkanlarından biri olacaq. Qohumlarım da kəndə ilk köçənlərdəndir. Qonşularım Habil Əkbərov, Qədir Əzimov, şəhid ailəsi Südabə Cavadova da yeni evlərinə köçüblər".

Keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər.

**Salman ALIOĞLU,**
**Mikayıl NƏRİMANOĞLU,**
**Rauf İBRAHİMOV (foto),**
**"Respublika".**

**Bakı-Xocalı-Bakı.**